Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 113-133
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 113-133
Araştırma Makalesi
Original Article

# Biləcik və Göynük:
# Oğuz türklərinin ən qədim yurd yerləri

**İkram Ağasiyev***
**ORCID: 0000-0003-0801-6683**

**Xülasə**

Məqalə Biləcik və Göynuk kimi toponimlərin yaranma tarixinə həsr edilmişdir. Müəllif qeyd edir ki, bu adlar altında olan şəhərlər və kəndlər həm Türkiyə, həm də Azərbaycan ərazisində mövcuddur. Türkiyədə Biləcik adı altında bir bölgə və bir bölgə mərkəzi, orta ölçülü bir şəhər və Göynuk adı altında müxtəlif bölgələrdə kiçik bir şəhər və bir neçə kənd var. Eyni zamanda Azərbaycanda Biləcik və Göynük adı altında müxtəlif ərazilərdə bir neçə kənd vardır.Bu toponimlərin yaranma tarixinin araşdırması göstərir ki, onların adları müxtəlif türk tayfalarının fəaliyyəti ilə əlaqəli olmuşdur. "Biləcik" toponimi Bolqar-Oğuz mənşəlidir, "Göynuk" toponimi isə Oğuz tayfasının Qınıq boyunun fəaliyyətinə görə yaranmışdır. Oğuz tayfasının Qınıq şivəsindən tərcümədə "Göynük" sözü "yaşıl torpaq" "yaşıl yer" mənasını verir. Bu, bir daha sübut edir ki, Türkiyə Cümhuriyyəti və Azərbaycanda yaşayan türk xalqı ortaq tarixi köklərə malikdir.

**Açar sözlər:** Oğuzlar, Biləcik, Göynük, qınıq, toponim

**Gönderme Tarihi: 21/07/2019** **Kabul Tarihi:26/11/2019**

*Professor,tarix elmləri doktoru, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan-Rusiya əlaqələri tarixi" şöbəsinin müdiri, E-mail:ikramagasiyev@mail.ru

# Bilecik and Goynuk:Ancient Locations of the Oguz Turks

**İkram Agasiyev**

**Abstract**

The article is devoted to the history of the emergence of such toponyms as Bilecik and Goynuk. The author notes that cities and villages under these names are also found in the territory of the Turkey and Azerbaijan. In Turkey, under the name Bilecik, there is a region and a regional center, a city of medium size, and a small town and several villages in various regions under the name Goynuk. At the same time there are several villages in different areas under the name Bilecik and Goynuk in Azerbaijan. A study of the history of the emergence of these toponyms shows that their names are associated with the activities of various Turkic tribes. The toponymy "Bilecik" has Bulgarian-Oguz origin while the toponymy "Goynuk" arose because of the activities of the Oguz tribe Kynyk. There is another explanation for the meaning of the name “Goynuk” which means “green land” “green place” in translation from the language of the Oguz tribe Kynyk. This proves once again that the Turkic populations of the Turkish Republic and Azerbaijan have common historical roots.

**Keywords*:*** Oguz, Bilecik, Goynuk, kynyk, toponyms

**Received Date: 21/07/2019** **Accepted Date: 26/11/2019**

# Биладжик и Гейнюк :
# древние места обитания огузских тюрков

**Икрам Агасиев**

**Резюме**

Статья посвящена истории возникновения таких ойконимов, как Биладжик и Гейнюк. Автор отмечает, что города и селы под таким названием встречаются и на территории Турейкой Республики и в Азербайджане. В Турции под названием Биладжик(Bilecik) есть область и областной центр, город средней величины и под названием Гейнюк (Göynük) есть небольшой город и несколько сел в различных областях.В то же время в Азербайджане под названием Биладжик(Biləcik) и Гейнюк (Göynük) есть несколько селений в разных районах.Исследование истории возникновения этих ойконимов показывает, что их названия связаны с деятельностью различных тюркских племен. Если топонимика «Биладжик» имеет булгарско-огузское происхождение, то топонимика «Гейнюк» возник как результат деятельности огузского племени кынык. Есть еще другое объяснение значения названия «Гейнюк» (Göynük), что в переводе с диалекта огузского племени кынык означает «зеленый край» «зеленое местечко». Это еще раз доказывает, что тюркское население Турецкой республики и Азербайджана имеют общие исторические корни.

**Ключевые слова:**огузы, Биладжик, Гейнюк, кынык,топонимы

**Получено: 21/07/2019** **Принято: 26/11/2019**

***Göynük obasında dünyaya göz açan, Azərbaycan və bütün türk dünyasının tarix elminin Alp Arslanına çevrilən, həyatını Azərbaycan və ümumi türk tarixinin ləkələrdən təmizlənməsinə, onun həqiqi tarixinin yazılmasına, türkün milli varlığını yox etmək üçün onun mənşəyini, kimliyini saxtalaşdırmağa çalışanlaraqarşı mübarizələrə həsr edən akademik Yaqub Mahmudovun 80 illikyubileyinə həsr edirəm.***

## Giriş

Türklərin ən qədiməcdadları tarixin ulu çağlarından Qafqazda, Ön Asiyada və Aralıq dənizinin şərq sahillərində avtoxton əhali kimi yaşam sürmüşlər. Müasir dövrdə türklərin Anadoluya ilk dəfə XI əsrdə “Altaydan gəlməsi” nəzəriyyəsi elmi cəhətdən iflasa uğramışdır və Altay bölgəsini türklərin ilkin vətəni sayan tədqiqatçıların sayı getdikcə azalmaqdadır. Bir çox türkşünaslar türklərin Altaylara sonralar Ön Asiyadan gəldiyini vurğulayırlar.[1] Tanınmış antropoloqların (Q.F.Debets, V.V.Bunak, R.Qasımova)uzun illər apardığı tədqiqatların nəticəsi bu olmuşdur ki, Xəzər dənizinin akvatoriyasından Aralıq dənizinəqədərki coğrafiyada hələ miladdan öncəki minilliklərdən eyni kökə malik etnos yaşamışdır ki, antropoloji olaraq, dolixokefal tipə aid bu etnosu bəzi mütəxəssislər “kaspi” tipi adlandırmışlar.[2]XX əsrin 30-cu illərində məşhur şərqşünas N. Marr apardığı tədqiqatların nəticəsi olaraq Xəzər və Aralıq dənizləri arasındakı ərazilərdə eramızdan əvvəlki minilliklərdə prototürklərin yaşadığını yazmışdır.[3]

---

[1]Firuddin Ağasıoğlu, *Doqquz biti, Azərbaycan türklərinin islamaqədər tarixi, I Biti, Tarixi qaynaqlar.* Bakı: nəşr yeri göstərilməmişdir, 2014,7-17; Kərəm Məmmədov, “Kaspi (Oğuz) antropoloji tipinin xüsusiyyətləri haqqında”, *Tarix və onun problemləri,* 2 (2003):177-181.
[2]Süleyman Əliyarlı, *Tariximiz açılmamış səhifələri ilə,* Bakı: Mütərcim nəşriyyatı, 2012, 33.
[3] Nikolay Marr “O lingvistiçeskoy poyezdke v Vostoçnoye Sredizemnomorye”, *İzvestiya Gosudarstvennoy Akademii İstorii Materialnoy Kulturı*, vıp.89 (1934): 55,56,62.

**Biləcik və Göynük yer adları**

Xəzər və Aralıq dənizi arasındakı ərazilərin sakinlərinin eyni bir soykökdən olduğunu göstərən ən tutarlı dəlillərdən biri də buradakı yer adlarının ümumi mənşəyə malik olması, təkrarlanmasıdır. İstər Azərbaycan, istərsə də bugünkü Türkiyə və türklərin yaşadığı region dövlətlərinin ərazilərində eyni mənşədən olan şəhər, kənd, dağ, çay, göl və s. toponimlərə rast gəlmək olar.Belə yer adlarından biri də həm Anadoluda, həm də Azərbaycanda mövcud olan Biləcik və Göynük yer adlarıdır. Müasir dövrdə Türkiyə Respublikası ərazisindəBiləcik adında vilayət və vilayətin mərkəzi olan, əhalisinin sayı 50 mini keçən eyniadlı Biləcik şəhəri var. Eyni zamanda,hal-hazırda Azərbaycan Respublikasının şimal-qərb bölgəsində,Şəki rayonunda Biləcik adında iki kənd- Birinci və İkinci Biləcik kəndləri mövcuddur.[4]

Eynilə, Göynük yer adına da indiki Türkiyə və Azərbaycanın Respublikalarının bir çox bölgələrində rast gəlmək olar. Onlardan ən böyüyü Türkiyənin Bolu vilayətində, Bolu-Biləcik avtomobil yolunun üstündə yerləşən, əhalisi 20 minə yaxın olan Göynük şəhəridir. Bundan savayı, Türkiyə Cümhuriyyətinin bir sıra vilayətlərində Göynük adında yaşayış yerlərinə rast gəlinir. Məsələn, Amasya vilayətində Göynücek köyü, Bingöldə əvvəllər Göynüklər, indi Göynük adlanan köy, Antalyada Göynük qəsəbəsini, Kahramanmaraşda adı tarixi mənbələrdə hələ XV əsrdən tanınan Göynük köyünü göstərmək olar.[5]Azərbaycan Respublikasının şimal – qərb bölgəsindəŞəki rayonunda Baş Göynük və Aşağı Göynük kəndləri və Naxçıvan MR-nın Culfa rayonunda Göynük kəndi, Babək rayonunda Göynüksu adlı yaşayış məntəqəsi və eyni adda çay mövcuddur.[6]Türk tarixi üzrə tədqiqatçıların əsərlərində Biləcikvə Göynük yaşayış yer adlarına tarixi mənbələrdə ilk dəfə XIII-XIV əsrin əvvəllərinə aid Bizans və ərəb mənbələrində, XV əsrdən isə artıq Osmanlı mənbələrində rast gəlindiyi vurğulanmışdır.[7] Mənbələrə əsasən, həm Biləciyin, həm də Göynüyün Anadolu ərazilərində meydana gəlməsi bu coğrafiyada oğuz türklərinin müxtəlif boylarının – xüsusən də,

[4]*Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, İki cilddə, I cild, Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007, 139,362,363.
[5]*Osmanlı yer adları*, Genişletilmiş ikinci basqı, Ankara, 2007, 305,306.
[6]*Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, İki cilddə, I cild, 298-299.
[7]Dmitriy Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*), Glavnaya redaksiya Vostoçnoy literaturı, Moskva: İzdatelstvo "Nauka", 1971, 125-132; İsmail Hakkı Uzunçarşılı, *Osmanlı Tarihi, 1 Cilt,* Ankara: Türk Tarih Kurumu Basımevi, 1988, 93-99.

qınıx boyuna aid səlcuqların, qayıların, əfşarların, çovdarların və s. boyların yayılması və daimi oturaq həyat tərzinə keçməsi ilə bağlıdır.[8]

## Biləcik adının mənşəyi haqqında

Biləcik və Göynük toponimlərinin mənşəyi və məna açılımı haqqında müxtəlif fikirlər mövcuddur. XIII-XV əsrə aid mənbələrdə Biləcik adının XIII əsrin sonlarında oğuzların qayı boyunun başçısı Ərtoğrul Qazinin və onun oğlu Osman bəyin Anadolu Səlcuq dövlətinin qərb ərazilərində fəaliyyəti nəticəsində yaranması göstərilir və bu yaranışın qısaca tarixi belədir: 1038 - ci ildə Xorasanda öz dövlətini yaradan qınıq boyundan olan səlcuq türklərinin XI əsrin ikinci yarısından başqa oğuz boyları ilə birlikdə Anadoluya axını başlayır.1071-ci ilin avqustunda Malazgirddə Bizansla döyüşündə qələbədən sonra səlcuqluların başçılığı ilə türklərin Kiçik Asiyada qələbələri davam etmiş və 1080-ci illərdə artıq bütün Kiçik Asiya səlcuqluların nəzarətinə keçmişdir.[9] Böyük Səlcuqlu imperiyası təəssüf ki, XII əsrin əvvəllərində ayrı-ayrı sultanlıqlara parçalanmağa başladı. Yeni yaranan gənc sultanlıqlardan ən güclüsü 1116-cı ildə yaradılan Konya və yaxud Anadolu sultanlığı idi.1157-ci ildə Səlcuqlu imperiyası ləğv olunduqdan sonra məhz Konya sultanlığı XII-XIII əsrlər boyu səlcuqlu dövlətçilik ənənələrini yaşadaraq möhtəşəm dövlətə çevrilmişdir.[10]

Səlcuqlu dövlətində iqtanın xüsusi forması “uc” adlanırdı və dövlətin sərhəd bölgələrini qoruyan tayfa başçısına iqta edilirdi.Bu cür tayfa başçıları ucbəyi titulu daşıyırdılar.XIII əsrin əvvəllərində Konya sultanlığının Bizansla sərhəd ərazilərini qorumaq vəzifəsini bir çox bəyliklər yerinə yetirirdilər.Ancaq onlardan ən tez yaradılanı və ən çox strateji mövqedə yerləşəni Çobanoğulları bəyliyi idi. Çobanoğulları bəyliyi XIII əsrin əvvəllərində əslən qayı boyundan olan əmir Hüsaməddin Çoban bəy tərəfindən yaradılmışdıru bəylik 1292-ci ildə Candaroğulları tərəfindən ləğv edilmişdir. Məlumdur ki, həm Osmanoğulları, həm də Umuroğulları bəylikləri Çobanoğulları bəyliyinin qolları olmuşdur. Adı çəkilən iki bəylik-Osmanoğulları və Umuroğullari Anadolu səlcuq sultanlığının Bizansdan müdafiəsində və ərazilərin qərbə doğru genişlənməsində müstəsna rol oynamışlar.

---

[8]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii)*..., 125-132.

[9]Uzunçarşılı, *Osmanlı Tarihi,* ...17.
[10]Çelik Züriye, *Moğol istilası ve Türkiye Selcuqlu Devlet, Doktora Tezi, Selçuk Ünivetsiteti,* 2014, 267.

Osmanoğulları bəyliyi müstəqil dövlət kimi 1299-cu ildə yaransa da, əslində bu türkmən bəyliyinin əsası hələ XIII əsrin 30-cu illərində Söyüdlü ilə Domaniç arası ərazilərdə qoyulmuşdur.Bu ərazilər dövlət qarşısında xüsusi xidmətlərinə görə Anadolu Səlcuqlu sultanı I Alaəddin Keyqubad tərəfindən qayı tayfasının başçısı Ərtoğrul Gündüz Alp oğluna iqta edilmişdir.[11]

Osmanlı dövlətinin əsasını qoyan qayıların Anadoluya necə və nə vaxt köç etdikləri haqqında müxtəlif fikirlər var. Əsas iddia, monqol istilası nəticəsində xarəzmlilərlə birlikdə Xorasana və Azərbaycana gəlmələri, bir müddət Azərbaycanda qaldıqları və buradan da Əhlət bölgəsinə köç etmələridir.[12] Qayılar Əhlətdən Bizans sərhəddinə, Söyütlü adlandırdıqları bölgəyə getmişlər. Ehtimal ki, qayıların bir qismi Anadoluya köç etməyib Azərbaycanda qalmışdır.Bu gün Azərbaycanın Oğuz rayonunda ən böyük kəndlərdən biri Söyüdlü adlanır.[13]

1281-ci ildə Ərtoğrulun ölümündən sonra ucbəyliyi onun oğlu Osman bəyə keçmişdir. Osmanlı mənbələrinə əsasən, Ərtoğrul oğlu Osman bəy 1299-cu ildə Anadolunun qərbində çox strateji mövqeyə malik Belekoma[14] (yunancadan –"şirin kənd") qalasını ələ keçirdikdən sonra adını dəyişərək Biləcik adlandırmış, buranı özünə paytaxt seçərək müstəqil fəaliyyət göstərməyə başlamışdır.[15]

Fəth edilən yeni qalanın Biləcik adlandırılması təsadüfdənmi?

Apardığımız araşdırmalara görə Biləcik adındakı "bilə" komponentinin təhlili göstərir ki, bu toponim çox qədim tarixə malikdir və bu komponentlə başlayan sözlərə qədim hunların, daha sonra bulqarların və xəzərlərin yayıldığı coğrafiyada daha çox rast gəlinir.Azərbaycanda Biləcikdən savayı, "bilə" və " bil" komponenti ilə başlayan Biləsuvar, Biləsər, Biləcəri,Biləğan, Biləv, Biləvtəpə Bilavar, Bildağ,Bilici Qorqan , qonşu Dağıstanda Bilici, Bələncər və s.yer adları vardır. Məlumdur ki, Volqa Bulqar türk dövlətinin ən böyük şəhərlərindən birinin və ikinci paytaxtının adı "Bilər" olmuşdur[16].

Bəzi mütəxəssislərin fikrincə, "bilə" komponeneti toponimiyada "çöl, səhra, düzən" deməkdir. Başqa bir yanaşmaya görə, "bil" sözü bəzi türk xalqlarının dillərində "az mailli çökəklik" mənasını verir.[17]Azərbaycanda Qanıx çayı vadisində yerləşən Bilə-

[11]Uzunçarşılı,*Osmanlı Tarihi,* 98.
[12]Uzunçarşılı, *Osmanlı Tarihi*, 97-98.
[13]ARDTA, fond.10, siy.1, iş 101,ver.288.
[14]Osmanlı yer adları, Genişletilmiş ikinci basqı,121.
[15]Uzunçarşılı,*Osmanlı Tarihi,* 104.
[16]Ahmed Xalikov, *Tatarskiy narod i yeqo predki,* Kazan: Tatarskoye knijnoye izdatelstvo, 1989, 93.
[17]Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, İki cilddə, I cild, 134.

ciyin və Türkiyədə Zakarya çayının vadisində yerləşən Biləciyin və ümumiyyətlə yuxarıda adı çəkilən "bilə", "bil" komponenti ilə başlayan yerlərin demək olar ki, hamısının relyefinin mailli çökəklik olması bu fikrin düzgünlüyünü təsdiqləyir[18].

Biləcik adını etnotoponim sayanlar da vardır. Yəni, bu adın türkdilli bulqar bilici tayfasının və xəzərlərin bələncər tayfasının adından əmələ gəlməsi də ehtimal edilir.Beləliklə, "bilə" komponenti ilə başlayan yer adlarının hunlarla və onların varisləri olan bulqarlarla və xəzərlərlə bağlılığı müşahidə olunur.

Türkoloq D.Y.Yeremeyevin yazdığına görə Anadolu ərazilərində türksoylu tayfalar hələ səlcuqların gəlişindən yüz illər öncə məskunlaşmışlar. Anadoludakı toponimikanın təhlili göstərir ki, buradakı yer adları təkcə oğuz türkləri ilə deyil, başqa türk etnonimləri ilə də bağlıdır və onların bir çoxları hələ XI əsrə qədərki dövrdə Bizans imperiyası ərazilərində məskunlaşmışdılar. Bu haqda Roma, Bizans, Suriya, ərəb və s. mənbələrdə məlumatlar yer alır.[19]

Məlumdur ki, 375-ci ildən başlayaraq hun türkləri Kilikiyada, Şərqi Anadoluda, İkiçayarasında, Suriyada və Frakiyada (indiki Bolqarıstan və Yunanıstanın şərqi)[20]məskunlaşmışdılar. Attilanın ölümü və Hun imperiyası parçalandıqdan sonra onların böyük hissəsi Bizans ərazilərində - Bosforda, Kiçik Asiyada məskunlaşaraq, burada ayrıca uluslar yaratmışlar.[21]Qara dənizin şimal sahillərinə qayıdan müxtəlif hun soyları isə yenidən birləşərək bulqar adı altında tarixi səhnəyə çıxdılar. Bizansla sıx əlaqələrdə olan bulqarların bir qismi 530-cu ildən başlayaraq, Anadoluda (Trabzon, Çorox və Fərat çayı hövzələrində) məskunlaşdılar. VI əsrdə Şərqi Anadoluda həmçinin suvar adlandırılan ağ hunlar və avarlar da məskunlaşmışlar. Bizans müəllifi Menandrın məlumatına əsasən, 576-cı ildə türkyutlar Bosforu ələ keçirmiş [22], VII əsrdə Kappodokiyada xəzərlər, VIII əsrdə isə Anadolunun cənubunda bulqarlar məskunlaşmışlar.[23]

VIII-X əsrlərdə, Ərəb xilafəti dövründə Mərkəzi Asiya və Xorasandan türklərin Anadoluya axınları gücləndi.Belə ki, Xilafət islamı qəbul etmiş türkləri hərbi xidmətə qəbul edərək onları Bizansla sərhədboyu ərazilərdə məskunlaşdırırdı və tədricən türk toplumlarının Şərqi Anadoluda yerləşməsi prosesi gedirdi.Qədim rus mənbələrində adları peçeneq (biçənər), quz (oğuz), berendey (bayandur),tork (türk) və polovets

[18]Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, İki cilddə, Icild,133-136.
[19]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*), 54.
[20]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*), 54.
[21]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*), 51.
[22]Qumilyov Lev, *Qədim türklər*.Bakı: Gənclik neşriyyatı, 1993,91 .
[23]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*), 62.

(kuman və yaxud qıpçak) kimi göstərilən türk tayfaları IX-XI əsrin ortalarında Balkan yarımadasından və Qara dənizdən keçərək Bizans ərazilərində məskunlaşmışdılar[24].Adı çəkilən tayfa nümayəndələrinin bir çoxu Kiyev Rus dövlətində hərbi xidmət yerinə yetirmişdilər və burada xristianlaşmaya məruz qalmışdılar[25]. Ümumi məlum olan faktdır ki, 1071-ci ildə, Malazgirddə Bizansla döyüşündə məhz yuxarıda adı çəkilən və Bizansda məskunlaşan türk toplumlarının döyüş ərəfəsində Alp Arslanın tərəfinə keçməsi səlcuqlu ordusunun qələbəsini təmin etmişdi.

Əldə olan materiallara əsasən belə nəticəyə gəlmək olar ki, müxtəlif türk tayfalarının – hunların, bulqarların, xəzərlərin, avarların, oğuzların, qıpçakların kütləvi şəkildə Kiçik Asiyada məskunlaşması hələ IV əsrdən başlamışdır və bu proses səlcuqların gəlişinədək davam etmişdir.XI əsrdən bu tayfalar qınıqlarla, qayılarla və s. oğuz boyları ilə qaynayıb qarışmışlar. MənbələrdənBulqar dövlətininbanisi Asparux xanın da damğasının eynən oğuzların qayı boyunda olduğu kimi –iki ox və bir yay işarəsi olduğu məlumdur[26].Türkiyə Cümhuriyyəti ərazisindəki bir çox oykonimlərin, o cümlədənBiləcik adının hun – bulqar şivəsindən yaranmasıehtimal etmək olar vəfikrimizcə, bu istiqamətdə hələ daha dərin tədqiqatlara ehtiyac vardır.

## Göynük adının mənşəyi haqqında

Biləciyin olduğu kimi, Göynük adının da mənasının bir neçə izahı vardır. Azərbaycan toponimiyasında Göynük/göyrük "yaşıl sahə, otlu sahə" mənasını ifadə edir. Bəzi ədəbiyyatda kəndin adı Köynük kimi göstərilmişdir ki, Köynük variantı "kənd, el, məskun yer" mənasını bildirir[27]. Fikrimizcə, Göynük toponiminin oğuzların qınıx boyunun adı ilə əlaqəliliyi də ehtimal edilə bilər. Belə ki, Azərbaycan arxivlərindəki Rusiya dövrünə aid sənədlərdə Göynük kəndinin adının Günik (Гюник) kimi qeydə alınmasına da rast gəlinir.[28]

Məlumdur ki, oğuzlar 24 boydan ibarət olmuşlar və oğuzların ən çox yayılmış boylarından biri olan qınıx boyu Səlcuqlu imperiyasını, imperiya parçalandıqdan sonra isə Konya, Suriya, İraq və Kirman sultanlıqlarını yaratmışdır.Azərbaycanda yaranan

---

[24]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii)*,64.
[25]Qumilyov Lev, *Ot Rusi do Rossii*.Moskva: Ayris-Press, 2011, 250.
[26]*Jivopisnaya istoriya Bolqarii*:https://maximus101.livejournal.com/134968.html (15.02.2019).
[27]Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, I cild, 115.
[28]ARDTA, fond 24, siy. 1, iş 162, ver. 25.

möhtəşəm Atabəylər dövləti də Səlcuqlu imperiyasının xələfi idi.[29] Təsadüfi deyil ki, “Göynük” adında yer adlarına Cənubi Qafqaz və Kiçik Asiyada, yəni Səlcukluların daha çox yayıldığı və hegemon olduğu ərazilərdə rast gəlinir. “Göynük” adının qınıx boyunun adından yaranmasını sübut edən faktlardan biri də budur ki, Azərbaycanda Göynük kəndi və ondan törəmə kəndlərin yerləşdiyi vadinin - Qanıx vadisinin və bu ərazidən axan Qanıx çayının da adı qınıx boyu ilə bağlıdır.

Göynük adı ilk dəfə XIII əsrdə baş vermiş hadisələrlə bağlı Bizans mənbələrində çəkilmişdir.XIII əsrin sonlarında Anadoluda yaranan və fəaliyyət göstərən bəyliklərdən biri də indiki Türkiyənin Bolu vilayətində mövcud olmuş və mərkəzi Göynük,Mudurnu olan Umuroğulları bəyliyi olmuşdur. Bəyliyin adı onun yaradıcısı Umur bəyin adından götürülmüşdür. Bizans qaynaqlarında bu bəyliyin adı Amorios kimi göstərilmişdir.[30] Bizanslıların Amorios kimi adlandırdığı ucbəyinin adı əslində Çobanoğulları bəyliyinin 3-cü nümayəndəsi, əmir rütbəsi daşıyan Müzəfərəddin Yavlak Arslan olmuşdur. Belə bir fikir yürütmək olar ki, o dövrdə yerli oğuz ləhcələrində “əmir” sözü “amır” kimi tələffüz edildiyindən bizanslı müəlliflərin əsərlərinə də bəyliyin başçısı əmir Müzəfərəddin Yavlak Arslanın adı sadəcə əmir, yəni “amiros” kimi düşmüşdür.[31]Onun davamçıları tarixdə Umuroğulları kimi tanınmışlar.

Osmanoğulları bəyliyi kimi Bizansla mübarizədə fəal rol oynayan Umuroğulları bəyliyi qısa bir dövr, yəni 1280-ci illərdən 1331-ci ilə qədər mövcud olmuşdur və bu səbəbdən də tarixi mənbələrdə adına çox nadir hallarda rast gəlinir. Bizans mənbələrinə əsasən, Candaroğulları Kastamonunu ələ keçirdikdən sonra buranı idarə edən Çobanoğullarının əlində yalnız Bolu və Göynük arası ərazilər qalmışdır ki, XIII əsrin sonlarında Göynük, Mudurnu və Bolu ətrafındakı əraziləri Çobanoğullarının bir qolu sayılan Umuroğulları idarə etməyə başlamışlar. O da məlumdur ki, Umuroğullarının əsas mərkəzi Göynük qalası olmuşdur. Umur bəy ilə Ərtoğrul bəy eyni tarixi dövrdə yaşamışlar, ancaq mənbələrdə onların birgə fəaliyyəti haqqında məlumatlara rast gəlinməmişdir. Umur bəy 1292-ci ildə monqollara qarşı istiqbal savaşında şəhid olmuşdur və əvəzinə ucbəyliyinə oğlu Əli bəy gəlmişdir. 1292-ci ildən sonra, yəni Əli bəyin dövründən başlayaraq, onlar Bizansa qarşı mübarizədə Osmanoğulları bəyliyi ilə sıx müttəfiqlik etmişlər. 1302-ci ildə baş verən Koyunhisar (Bafeos) savaşında

---

[29] Ziya Bünyadov, *Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər,* Bakı: "Şərq-Qərb" neşriyyatı, 2007, 3,4.
[30]Uzunçarşılı, *Osmanlı Tarihi,* 102.
[31]Yaşar Yücel, Çoban Oğulları Beyliği:http://dergiler.ankara.edu.tr/dergiler/26/1046/12632.pdf, (23.02.2019), 67.

Umuroğlu Əli bəyin Ərtoğrul oğlu Osman bəyə hərbi dəstəyi sayəsində bu savaşı Osman bəy qazanmışdır.

1304-cü ildə Candaroğulları Umur bəyin kiçik oğlu Əmir Mahmudu öldürmüşlər. Bu dövrdən başlayaraq onun böyük qardaşı Əli bəyin də fəaliyyəti haqqında mənbələrdə məlumata rast gəlinməmişdir. Ancaq dövrünün tanınmış tarix-çilərindən olan ərəb tarixçisi Öməri 1330-cü ildə Göynükdə hələ də Umuroğullarının oturduğunu qeyd etmişdir, yəni 1331-ci ilədək Umuroğulları ucbəyliyi kimi mövcud olmuşdur.1330-cu ildə Anadoluya səyahət etmiş ərəb ibn Battut da bu dövrdə kiçik Göynük şəhərində yunanlarla türklərin birgə yaşadığını və şəhərin müsəlmanlar tərəfindən idarə olunduğunu qeyd etmişdi.[32]Öməri Umuroğullarının 3 min, Osmanlıların 25 min və Candaroğullarının isə 30 min atlıya malik olduğunu göstərmişdir. Çobanoğullarının bir qalığı sayılan Umuroğulları bir tərəfdən Candaroğulları, digər tərəfdən Osmanoğulları tərəfindən əridilərək getdikcə qüvvələrini itirmiş, 1331-ci ildə mərkəzi Göynük olan Umuroğulları bəyliyi Osman bəyin nəvəsi, Orxan bəyin oğlu Süleyman paşa tərəfindən Osmanlı dövlətinə qatılmışdır.

Beləliklə, Osmanlılar Söyüdlü və Biləcikdən, Umuroğulları Göynükdən və Mudurnudan Bizansa hücumlar edirdilər. Elə Osmanlıya qatılan ilk bəylik də Umuroğulları bəyliyi olmuşdur. Çobanoğulları bəyliyinin qolları olan Umuroğulları və Osmanoğulları təqribən 50 ilə yaxın bir zaman kəsiyində Bizansa qarşı mübarizədə müttəfiqlik etmişlər, yəni Biləcik və Göynük daima yan-yana olmuş, birgə mücadilə aparmış, böyük Osmanlı imperiyasının yaranmasında, güclənməsində birgə fəaliyyət göstərmişlər.

**Azərbaycanda Biləcik və Göynük kəndlərinin salınması**

1578-ci ildə iki qardaş türk dövləti Osmanlı və Səfəvi imperiyaları arasında iqtisadi maraqlar zəmnində müharibə başladı.Osmanlı sultanı III Murad (1575-1595) Mustafa Lələ Paşanın başçılığı ilə 100 minlik osmanlı qoşununu Cənubi Qafqaza göndərdi. Fasilələrlə 1590-cı ilədək sürən müharibə İstanbul sülhü ilə başa çatdı və sülhün şərtlərinə görə tarixi Azərbaycan torpaqlarının böyük hissəsi Osmanlı dövlətinin tərkibinə keçdi.[33]Yeni birləşdirilmiş əraziləri daha sıx özünə birləşdirmək üçün III Murad köçürmə siyasətini həyata keçirdi və Azərbaycanın müxtəlif bölgələrinə-

[32]Yeremeyev, *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii)*, 102.
[33]İkram Ağasiyev, *Azərbaycan tarixi (sxemlərdə, xəritələrdə, cədvəllərdə), Ali məktəblər üçün dərs vəsaiti,* Bakı: "Biznes Universiteti" nəşriyyatı, 2015, 124.

Naxçıvana, Zəngəzura, İrəvana, Qarabağa, Şirvana, o cümlədən Şəkiyə Anadoludan minlərlə ailələr köçürüldü, yeni kəndlər salındı.Həmin illərdə Şəki bölgəsində yaradılan yeni yaşayış məntəqələrindən ən böyüyü Biləcik və Göynük kəndləri idi.[34]

Qeyd etmək yerinə düşər ki, Osmanlıdan köçürülənləri bir necə kateqoriyaya bölmək olardı.Onlardan bir qismi Osmanlı dövlətinə zaman-zaman baş ağrısı yaratdığı üçün köçürülürdülər.Bəzilərinin isə Azərbaycana köçürülməsində Osmanlı dövləti yeni birləşdirilən torpaqlarda özünə möhkəm, dəyanətli arxa-dayağın yaradılması kimi strateji məqsədlər güdürdü.Fikrimizcə,Osmanlı dövlətinin yaradıcıları olan qayıları və qınıqları Qərbi Anadolunun Biləcik, Göynük mahallarından Azərbaycanın şimal-qərbində yerləşdirilməsi məhz bu məqsədlə həyata keçirilmişdir.

Eynilə Türkiyədə olduğu kimi, Azərbaycanda da, Şəki bölgəsində Biləcik və Göynük kəndləri yan-yana, biri-birinin qonşuluğunda salındı.Bəzən adı Köynük variantında da işlədilən Göynük kəndinin əsası Əyriçayın qolu olan Şin çayının sol sahilində, Böyük Qafqaz dağlarının Qoçumırıq silsiləsinin şimal-qərb ətəyində,meşələrlə örtülmüş mənzərəli bir yerdə qoyuldu.[35]Biləcik kəndi isə Böyük Qafqaz dağlarından 2-3 km cənubda, Qanıx vadisində, içməli su ilə, əkinçilik üçün münbit torpaqlarla, suvarma üçün daimi çaylarla zəngin bir yerdə salındı.

### Biləciyin və Göynüyün Azərbaycan tarixində yeri

Əsasən qınıx və qayı boylarının nəsillərindən olan Göynük və Biləcik əhalisi Azərbaycan tarixinə Vətən torpağına göz dikən yağılara, xalqa zülm edən məmurlara qarşı haqq, ədalət uğrunda mübarizə aparan bir toplum kimi düşmüşdür.

Səfəvi imperiyasının tənəzzülü dövründə, 1734-cü ildə Şəki vilayətinin Biləcik kəndində məğlubiyyətin nə olduğunu bilməyən, Rusiya imperiyası və Osmanlı dövləti qoşunlarına qarşı savaşlar aparan sərkərdə Nadir xan Əfşara qarşı ilk silahlı üsyan baş vermişdir. Bu üsyanın başlanmasına səbəb Nadir xanın vergi toplayanlarının Biləcik əhalisi ilə qəddar davranışı və acgözlüyü olmurdur. Biləcik üsyanı ilə hadisələr təfsilatı ilə bu hadisələrin şahidi olmuş və dövrünün qabaqcıl adamlarından sayılan Molla Məhəmməd əl - Carinin ərəb dilində qələmə aldığı "Car salnaməsi" əsərində öz əksini tapmışdır[36]. Əsərdə müəllif Təhməzqulu xanın (Nadir xanın) adamlarının Biləcikdə

[34]Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, İki cilddə, I cild, 134, 114,115.
[35] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, İki cilddə, I cild, 114,115.
[36]Molla Məhəmməd əl-Cari, *Car salnaməsi,* Bakı: "Səda" nəşriyyatı, 1997.

qalıb zorla böyük miqdarda xərac yığdığını, və əhalinin müqavimət göstərərək vergi yığanları öldürdüyünü göstərmişdir və mənbədən məlum olur ki, Biləcik üsyançıları köməyə qonşu kəndlərin sakinlərini çağırmışlar. Nadir xanın qoşunlarının yaxınlaşması səbəbindən Biləcik kəndindən 300 ailə Car-Balakənə sığınmağa məcbur olmuşdur[37]. Nadir xanın sərbazları Biləcik kəndini yandırmış, üsyan amansızlıqla yatırılmışdır. Yalnız sonrakı illərdə kənd camaatı öz dogma yurduna qayıdaraq, Biləciyi yenidən bərpa etmişlər.

Biləcik kəndi yenicə bərpa olunub özünə gəlməyə başlamışdı ki, kəndə başqa bir bədbəxtlik baş vermişdir: 1764-cü il 24 yanvar tarixində Biləcik kəndinin yarıdan çoxu zəlzələ nəticəsində tamamən məhv olmuşdur[38]və kəndin yenidən öz əvvəlki vəziyyətinə çatması üçün onillərlə vaxt lazım gəlmişdir.

XIX əsrin əvvəllərində dağlıq ərazidə yerləşən Göynük kəndinin əhalisinin sayı artmış və əkinəyararlı torpaq sahələrinin çatışmazlığı səbəbindən kəndin əhalisinin bir qismi kənddən təqribən 10 kilometr cənubdakı düzəngah ərazilərə köçərək yeni yaşayış məntəqəsi yaratmış və bu yeni məntəqəni Aşağı Göynük, yəni "aşağıda olan Göynük kəndi" adlandırılmışlar[39].Tarixi Göynük kəndinin adının əvvəlinə isə "baş" sözü əlavə edilmişdir və Baş Göynük adlandırılmışdır. Oykonim "yuxarıda yerləşən Göynük kəndi" deməkdir. Elə o vaxtdan yeni yaranan yaşayış məntəqəsi Aşağı Göynük tarixi Göynük kəndi isə Baş Göynük adlandırılmışdır və ilk dəfə tarixi mənbədə həmin kəndlər bu adla 1807-ci ildə baş verən hadisələrlə bağlı göstərilmişdir[40].

XIX əsrin əvvəllərində Azərbaycan parçalanmış şəkildə qalmaqda idi. 1747-ci ildən davam edən siyasi pərakəndəlik aradan qalxmamış ayrı-ayrı xanlıqlar arasında çəkişmələr davam etməkdə idi. Belə bir şəraitdə XIX əsrin əvvəllərində çar Rusiyası Şimali Azərbaycan xanlıqlarının işğalına başladı. Biləcik və Göynüyün də daxil olduğu Şəki xanlığı 1805-ci il mayın 21-də Rusiyaya ilhaq edilsə də, müqaviləyə əsasən, Qarakeşiş oğlu nəslindən olan Şəki xanı Səlim xanın daxili idarəetmə hüququ saxlanılmışdı. 1806-cı ildə Səlim xanın qohumu Qarabağ xanı İbarahimxəlil xanın və ailəsinin çar hərbçiləri tərəfindən vəhşicəsinə qətlindən sonra Şəki xanlığında Rusiyaya qarşı xalq üsyanı başladı. Bu üsyana əvvəlcə Səlim xan özü başçılıq etsə də, o, İrana qaçmağa məcbur oldu və üsyana onun qardaşı Məmmədhəsən xan rəhbərlik etməyə

[37]Əl-Cari, *Car salnaməsi,* 28.
[38]Ədalət Tahirzadə, *Şəki tarixi qaynaqlarda,* Bakı: "Master" nəşriyyatı, 2005, 216.
[39] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, I cild, 74.
[40] Aktı, sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey (AKAK). Pod redaksiey Ad.Berje, t.3, Tiflis: 1869, 269.

başlayır. Çar hökuməti yerli Şəki bəylərinə etimad göstərmədiyindən 1807-ci ilin yanvarında əslən Xoydan olan ikiüzlü və yaltaq Cəfərqulu xanı Şəkiyə xan təyin edir. Cəfərqulu xan özünə sosial dayaq kimi yüzlərlə erməni ailəsini İrandan Şəki xanlığının ərazilərində yerləşdirdi. Nəticədə, XIX əsrin əvvəllərində Şəki şəhərində və mahalda ermənilərin sayı bir neçə minə çatdı[41]. Çar hökumətinin Şəki xanlığında yürütdüyü mürtəce siyasət, Cəfərqulu xanın özbaşınalığı və erməniləri yerləşdirmə siyasəti əhalinin narazılığına səbəb oldu və çar hökumətinə qarşı silahlı mübarizə başladı[42].

Cəfərqulu xana qarşı ən geniş hərəkat Göynük kəndində başlamışdır və burada üsyana yüzbaşı Sultan Murad başçılıq edirdi. O, 1807-ci ilin aprelində Aşağı və Yuxarı Göynük, həmçinin rutulların yaşadığı Burju kəndinin əhalisini öz ətrafında topladı və çarizmə qarşı silahlı mübarizəyə başladı.[43]Çar qoşunları tərəfindən ələ keçirilən Sultan Murad sonralar həbsdən qaçaraq Cara gəlmiş və bir neçə il burada mübarizəni davam etdirmişdir.[44]

1808-ci ilin əvvəlində Şəki xanlığında azadlıq mübarizəsi yeni vüsət aldı. Bu mübarizəyə Məmmədhəsən xan rəhbərlik edirdi. Mənbələrdə Məmmədhəsən xanı dəstəkləyənlərin əsas hissəsinin Biləcik camaatı olduğu göstərilir və 1809-cu ildə onların dəfələrlə Cəfərqulu xanın dəstələri ilə silahlı toqquşmalarından bəhs olunur. [45] Mənbələrdə həmçinin Cəfərqulu xana qarşı Azərbaycanın şimal-qərb bölgəsindən sayı 5 minə çatan silahlanmış narazı kütləninBiləcik kəndində cəmləşdiyi göstərilir.[46]Bu üsyanlar məğlubiyyətlə bitir və Şəki xanlığı ləğv edilərək rus zabitləri-komendantlar tərəfindən idarə olunmağa başlayır.

Vergi ödəyən əhalinin tam siyahısını tərtib etmək üçün 1824-cü ildə aparılan siyahıya almanın nəticələri göstərir ki, Göynük və Biləcik Şəki əyalətinin əhalisinə görə ən böyük yaşayış məntəqələrindən olmuşdur. Belə ki, 1824-cü ildə Şəki əyaləti 8 mahaldan, 272 kənddən ibarət idi. Şəki mahalında 89 kənd vardı və əhalisinə görə onlardan ən böyüyü 3433 nəfər sakini olan Göynük kəndi idi. Ondan sonra tatarların (türklərin) yaşadığı Vartaşin (3103), Küngüt (1814 nəfər) və Biləcik kəndi (1576 nəfər) gəlirdi[47]. Şəki mahalının əhalisinin ümumi sayı 33 min 797 nəfər təşkil edirdi və bu

[41]Zərinə Cavadova, *Şimal-qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma),* Bakı:Altaynəşriyyatı, 1999, 46.
[42]AKAK,t.3, 269.
[43]AKAK,t.3, 279.
[44]AKAK, t.4, Tiflis: 1870, 543.
[45]AKAK, t.4, 505,543.
[46]AKAK, t.3, 268.
[47]ARDTA, fond 24, siy.1,iş 71. v.11.

əhalinin təqribən 15%-i Göynük və Biləcikdə yaşayırdı. Göynükdə 739, Biləcikdə isə 350 ev qeydə alınmışdır.[48]Sənəddə hər iki kəndin əhalisinin ucdantutma tatarlardan, (çar Rusiyasında Azərbaycan türkləri rəsmən "tatar" adlandırılırdılar), yəni türklərdən ibarət olduğu vurğulanır.

Rusiya müstəmləkəsində yaşasalarda, Osmanlı dövləti ilə tarixi bağlılıq və Azərbaycanı azad görmək fikri Azərbaycan türklərini tərk etməmişdi.1877-ci ilin yazında Rusiya ilə Osmanlı arasında müharibəyə və bu müharibədə Osmanlı dövlətinin qələbəsinə həm Göynükdə, həm də Biləcikdə, ümumiyyətlə bütün Azərbaycanda Rusiya işğalından azad olmanın yeganə ümid yeri kimi baxırdılar.Odur ki, 1877-ci ilin aprelində rus-türk müharibəsinin başlanması xəbəri Qafqaz müsəlmanları arasında azadlıq, müstəqillik ideyalarının yenidən canlanmasına, onların Rusiya imperiyasına qarşı silaha sarılmasına səbəb oldu. Osmanlı türkləri ilə həmrəylik nümayiş etdirən Azərbaycan türkləri rus müstəmləkəçilərinə qarşı mübarizəyə qalxdılar. Üsyanın cərəyan etdiyi ən qızğın bölgələrdən biri də Göynüyün və Biləciyin yerləşdiyi Azərbaycanın Şəki bölgəsi idi.Burada kəndli həyəcanları 1877-ci ilin oktyabrında başladı. Üsyanı ilk başlayan Baş Göynük kəndinin sakinləri oldular. Tezliklə Aşağı Göynük, Biləcik, Şin, Baş Laysqı, Aşağı Laysqı, İncə, Cunut, Oxud, Qoxmux və s. kəndlərin əhalisi də üsyana qoşuldu. Üsyançıların sayı 8 minə çatırdı[49]. Çar hökumət qoşunları Şəkiyə əlavə qüvvələr çəkdi və Şəkidə yaşayan erməniləri də silahlandırıb üsyançılara qarşı göndərdi. Şəki üsyanında ən fəal iştirak edən kəndlər Osmanlı dövlətinin daim təəssübkeşliyini çəkən Baş Göynük, Aşağı Göynük və Biləcik kəndləri idi.[50]

1877-ci ilin oktyabrın 30-da Qoxmux çölündə, Qarabulaq adlanan yerdə üsyançılarla hökumət qüvvələri arasında qanlı döyüşbaş verdi.Üsyançılar Şəkini ələ keçirməyə çalışırdılar. Hökumət qüvvələri artilleriya tətbiq edərək üsyançıları çəkilməyə məcbur etdilər. 1877-ci il noyabrın 5-də Şəki bölgəsində üsyan tamamən yatırıldı. Nəticədə 300 üsyançı həlak oldu, 600-dən çoxu yaralandı. General leytenant Mamontsovun rəhbərliyi ilə çar qoşunları Şəki kəndlərində cəza tədbirlərinə başladılar. Üsyanda fəal iştirak etdiyinə görə Baş Göynükdən 13, Aşağı Göynükdən 25 sakinin evlərinə od vuruldu. Üsyan iştirakçılarının böyük əksəriyyəti sürgünə və katorqaya

[48]ARDTA, fond 24, siy. 1, iş 162, v.268-287, 308-319.
[49]Təranə Behbudova, "1877-ci il Nuxa-Göynük üsyanı haqqında", *Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası*, №1, (2014), 186.
[50]Behbudova, "*1877-ci il Nuxa-Göynük üsyanı haqqında",*184.

göndərildilər.[51] Şəkibölgəsinin kəndlərində aparılmış axtarışların nəticəsi olaraq müəyyən olunur ki, təkcə Baş Göynük kəndinin 384, Aşağı Göynük kəndinin 280, Biləcik kəndinin 200 sakini üsyanda iştirak etmişdir.[52] Göynük və Biləcikdə çar hökumətinə qarşı azadlıq mübarizəsinin növbəti dalğası XX əsrin əvvəllərində başladı.Çar Rusiyasının Şimali Azərbaycandakı milli müstəmləkəçilik siyasəti nəticəsində Azərbaycan kəndlərində əhalinin azlıq təşkil edən bir qismi ifrat dərəcədə varlanır, yerdə qalan çoxluğun vəziyyəti günü-gündən ağırlaşırdı.Sosial zülmə milli və dini zülm də əlavə olunmuşdu. Belə bir vəziyyət XIX əsrin sonları-XX əsrin əvvəllərində Şimali Azərbaycanda kəndli azadlıq hərəkatının yeni mərhələsi hesab olunan qaçaq hərəkatına səbəb oldu. Azərbaycanın şimal-qərb bölgəsi, xüsusən də Baş Göynük kəndi Şimali Azərbaycanda yüksələn qaçaq hərəkatının ən mühüm mərkəzlərindən biri idi. Burada fəaliyyət göstərən qaçaq dəstələrinə qaçaqlar Sadıx Dadaş oğlu və Məhəmməd Cavadoğlu başçılıq etmişlər.[53]

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın şimal-qərb bölgəsində fəaliyyət göstərən qaçaq dəstələrindən göynüklü Cavadoğlu Məhəmmədin adı ilə bağlı hərəkat daha geniş kütlələri əhatə etmişdi.Onun dəstəsində Baş Göynük sakinlərindən savayı Aşağı Göynük, Biləcik, Aşağı Şabalıd və s. kəndlərin sakinləri də iştirak etmişlər.[54] Göynüklü Cavadoğlu Məhəmmədin qaçaq dəstəsi on beş ildən artıq bir müddətdə çar Rusiyasına qarşı mübarizə aparmışdır.

1920-ci ilin aprelində Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olundu, Azərbaycanda Sovet hakimiyyəti quruldu və yenə Azərbaycan torpaqları rus imperiyasına, ancaq bu dəfə saxta qardaşlıq, bərabərlik şüarları ilə maskalanmış bolşevik rejiminin imperiyasına – SSRİ-yə qatıldı, faktiki olaraq Azərbaycan büsbütün Rusiyanın nəzarətinə keçdi.

Bolşevik işğalı ilə barışmayan Azərbaycan türkləri azadlıq mücadiləsini davam etdirirdilər və bu mübarizənin önündə yenə Azərbaycanın şimal-qərb bölgəsi və onun inzibati mərkəzi Şəki gedirdi. Xalqın milli oyanışını təsdiqləyən ən mühüm əlamətlərdən biri əhalinin öz etnik soy-kökünə, türklüyə, Türkiyəyə marağının xeyli artması idi. Hələ 1919-cu ildə Şəkinin "Mədəniyyət" mətbəəsində əslən şəkili olan Abdulla Əfəndizadənin "Ya ölüm, ya Türkiyə" kitabçası nəşr olunmuşdu. Bu əsərdə müəllif yazırdı ki, «Böyük Türkiyə ilə birləşib əzəmətli və elmi səltənət təşkil etməklə bərbad

[51]Behbudova, "*1877-ci il Nuxa-Göynük üsyanı haqqında"*,186.
[52]Ardta, f.45, siy.2, iş 132, v.16-17.
[53]Ənvər Məmmədov, *Göynük hərəkatı: Cavadoğlu Məhəmməd*, Bakı: "Təhsil" neşriyyatı, 2012,21.
[54]Məmmədov, *Göynük hərəkatı: Cavadoğlu Məhəmməd*, 29.

ittihadi-millət və ittihadlaşan bizim milli əməllərimiz çiçəklənə biləcəkdir".[55] Sovet hakimiyyətinin qurulmasından 10 il keçməsinə baxmayaraq türkçülük, azadlıq ideyaları xalqın yaddaşından silinməmişdi və 1930-cu ilin aprelində şimal-qərb bölgəsində sovet və partiya orqanlarına qarşı üsyanlar baş verdi. Bu dəfə də usyan hərəkatının əsas mərkəzi Şəkinin Baş Göynük kəndi idi.Üsyana tanınmış ilahiyyətçi Molla Mustafa Şeyxzadə başçılıq edirdi. [56] Üsyançılar zülm və bəlaların dövlət müstəqilliyimizin itirilməsinin nəticəsi olduğunu aydın şəkildə dərk edirdilər və xilas yolunu milli Azərbaycan dövlətinin bərpasında görürdülər.

Üsyançılar sovet qoşunlarını məğlubiyyətə uğradaraq Şəki şəhərini tutub, həbsxanada olan ziyalıları, din xadimlərini və digər nüfuzlu şəxsləri azad etdilər. Üsyanda nəinki yoxsul kəndlilər, fəhlələr, din xadimləri, hətta yerli bolşevik təşkilatlarının üzvləri-kommunistlər də iştirak etmiş, hakimiyyəti bir necə gün əldə saxlaya bilmişdilər.[57] Bu üsyanda Baş Göynüklə yanaşı Şəkinin Aşağı Göynük, Biləcik və s. kəndlərinin sakinləri xüsusi fəallıq göstərmişlər. Əksəriyyətinin komandanı erməni əsilli zabitlər olan Sovet hərbi qüvvələri tərəfindən üsyan amansızlıqla yatırıldı. Akademik Yaqub Mahmudovun yazdığına kimi, "Göynük üsyançılarına xüsusilə ağır divan tutuldu. Onlar heç bir istintaq və mühakimə aparılmadan əhalinin gözləri qarşısında güllələndi və əlləri ilə qazdırılmış quyulara dolduruldular. Bununla ermənilər 1918-ci ildə Şəki ərazisində daşnaklara əl-qol açmağa imkan verməmiş göynüklülərdən qisas aldılar".[58]Maraqlı fakdır ki, bu üsyan zamanı da yerli əhali yenə də Türkiyədən köməyin göndərilməsinə ümid edirdilər[59], yəni bölgə əhalisi Türkiyəyə nicat yeri kimi baxmaqda davam edirdi. Şübhəsiz ki, 1930-cu illərdə beynəlxalq aləmdə yaranmış siyasi vəziyyətlə bağlı Türkiyənin bu cür addım atması mümkünsüz idi.

1991-ci ilin oktyabrınadək bütün Azərbaycan türkləri kimi Baş Göynük, Aşağı Göynük, Biləcik kəndlərinin əhalisi də ağır Sovet rejimi şəraitində həyat və fəaliyyətlərini davam etdirdilər, qurub yaratdılar, doğub artdılar. Çoparx çayının hər iki sahilində, Qanıx vadisində yerləşən Aşağı Göynük kəndi böyümüş, əhalisinin sayı artdıqca ətrafında göynüklülərdən ibarət Köndələn, Abbaskənd,Selbasan kimi kəndlər

---

[55]Həbibulla Manaflı, *Şəki üsyan,* Bakı: Zaman neşriyyatı, 2000, 11.
[56]Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.255,siy.1,iş 56, v.38-47.
[57]Şahla Mamedova, "Nuxa-Zakatalskoye vosstaniye 1930 qoda". *İstoriya i yeyo problemı. Baku,№1,* (2002): 90.
[58]Cavadova, *Şimal-qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma),*91.
[59]Ənvər Məmmədov, 1920-1930-cu illərdə Azərbaycanin Şimal-qərb bölgəsində müqavimathərəkati, Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı: Əlyazma hüququnda,2018, 216.

yaranmışdır. Baş Göynük kəndinin əhalisi hesabına isə Cumay, Təzəkənd kəndləri yaranmışdır[60], eyni zamanda bu gün qonşu Baş Şabalıd, Aşağı Şabalıd, Aşağı Layskı kimi kəndlərin də əhalisinin əhəmiyyətli hissəsini Baş Göynük kəndindən gələnlər təşkil edirlər.

Azərbaycandakı Biləcik kəndi də eynilə XX əsrin əvvəllərində iki kəndə - Birinci Biləcik və İkinci Biləcik kəndlərinə bölünmüşdür. Biləcik kəndinin şimal hissəsində qonşu Cunut (Zunut) kəndindən gələn bir qrup tacir məskən salmış və ərzaqla ticarət etdiklərindən onların yaşadığı yer Baqqallı adlandırılmışdır və bu məhəllə XX əsrin əvvəllərindən Baqqal adında ayrıca bir kənd kimi mövcudluğunu davam etdirir.[61]

[60] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild,116.
[61] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild,105.

**Nəticə**

1991-ci ili oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və onun müstəqilliyini tanıyan ilk ölkə qardaş Türkiyə Respublikası oldu.O vaxtdan 27 il keçmişdir və bu gün bütün Azərbaycan kimi, qədim oğuz yurdu Şəki eli, Göynük və Biləcik obaları da çiçəklənmə dövrünü yaşayırlar.

Yuxarıda göstərildiyi kimi, qayıların və qınıqların XI-XII əsrlərdə Azərbaycandan Anadoluya köç etməsi danılmaz faktdır.Eyni zamanda,XVI əsrin sonlarında Osmanlı dövlətinin  Biləcik və Göynük mahallarından əhalinin Azərbaycanın Şəki bölgəsinə köçürülməsi də tarix elminə məlumdur.Biləcik və Göynüyün ilk olaraq əsasının harada qoyulmasından asılı olmayaraq məlum olan budur ki, bu gün həm Azərbaycanın, həm də Anadolunun Göynük-Biləcik elində eyni oğuz boylarından olan, öz vətəninə, yurduna sadiq, türk yurdunun keşiyində  dəyanətlə dayanan Alp Arslanın, Ərtoğrulun, Osman Qazinin nəvələri yaşayırlar.

Bu gün əkiz qardaşlar adlandırıla biləcək Azərbaycan və Türkiyə arasındakı tarixi bağlılığı,bu coğrafiyada yaşayan insanların eyni kökə, eyni dilə, eyni törəyə aid olduğunu Azərbaycan xalqının, bütün türk dünyasının ulu öndəri Heydər Əliyev mükəmməl bir fikirlə  ifadə etmişdir: “Biz bir millət, iki dövlətik”.

## Kaynaklar

AĞASIYEV,İ., *Azərbaycan tarixi(sxemlərdə, xəritələrdə, cədvəllərdə),* Ali məktəblər üçün dərs vəsaiti, Bakı: “Biznes Universiteti” nəşriyyatı, 2015.

AĞASIOĞLU,F.,*Doqquz bitik. Azərbaycan türklərinin islamaqədər tarixi,I Bitik, Tarixi qaynaqlar*, Bakı: nəşr yeri göstərilməmiş, 2014.

Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti, İki cilddə,I cild, Bakı: «Şərq-Qərb" nəşriyyatı, 2007.

Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti,İki cilddə, IIcild, Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007.

Aktı, sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey (AKAK). Pod redaksiey Ad.Berje, t.3, Tiflis: 1869.

AKAK, t.4, Tiflis: 1870.

BEHBUDOVA,T.,“1877-ci il Nuxa-Göynük üsyanı haqqında”, *Bakı Universitetinin xəbərləri,* №1, Humanitar elmlər seriyası, (2014), 182-187.

BÜNYADOV,Z.,*Azərbaycan Atabəyləri dövləti* (1136-1225-ci illər), Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007.

CAVADOVA, Z., *Şimal-qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma*),Bakı: Altay“ nəşriyyatı, 1999.

ÇELIK,Z., “Moğol istilası ve Türkiye Selcuqlu Devleti”. Doktora Tezi.Konya: 2014.

ƏLIYARLI S.,*Tariximiz açılmamış səhifələri ilə*, Bakı: Mütərcim nəşriyyatı, 2012.

QUMİLYOV L., *Qədim türklər,* Bakı: Gənclik nəşriyyatı, 1993.

QUMİLYOV, L.,*Ot Rusi do Rossii*. Moskva: Ayris-Press neşriyyatı, 2011.

MAHMUDOV Y.M., *Seçilmiş əsərləri*, 13 cilddə, IX cild, Bakı: “Təhsil” nəşriyyatı, 2011.

MANAFLI,H., *Şəki üsyanı*, Bakı:” Zaman” nəşriyyatı, 2000.

MARR. N. “O lingvistiçeskoy poyezdke v Vostoçnoye Sredizemnomorye”. *İzvestiya Gosudarstvennoy Akademii İstorii Materialnoy Kulturı*. Vıp.89, (1934), 55-62.

MƏMMƏDOV,Ə.,“1920-1930-cu illərdə Azərbaycanin Şimal-qərb bölgəsində müqavimət hərəkatı”, Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Əlyazma hüququnda, Bakı: 2018.

MƏMMƏDOV, Ə., *Göynük hərəkatı: Cavadoğlu Məhəmməd*, Bakı:“Təhsil” nəşriyyatı, 2012.

MƏMMƏDOV, K., “Kaspi (Oğuz) antropoloji tipinin xüsusiyyətləri haqqında”. *Tarix və onun problemləri,* № 2, (2003), 177-181.

MOLLA MƏHƏMMƏD ƏL-CARI, *Car salnaməsi,*Bakı:“Səda” nəşriyyatı, 1997.*Osmanlı yer adları.*Genişletilmiş ikinci basqı, Ankara, 2007.

TAHIRZADƏ, Ə., *Şəki tarixi qaynaqlarda*, Bakı: “Master” nəşriyyatı, 2005.

UZUNÇARŞILI.İ. H., *Osmanli tarihi,* 1.Cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1988.

YEREMEYEV D., *Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii*). Glavnaya redaksiya Vostoçnoy literaturı. Moskva:"Nauka" nəşriyyatı, 1971.

XALİKOV A. *Tatarskiy narod i yeqo predki.* Kazan: Tatarskoye knijnoye izdatelstvo, 1989.

## Arşiv Kaynakları

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.255,siy.1,iş 56, v. 38-47.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi(kısaca-ARDTA), f.10, siyahı 1, iş 101.

ARDTA, fond 24, siyahı 1,iş 71.

ARDTA, fond 24, siyahı 1,iş 72.

ARDTA, fond 24, siyahı 1, iş 162.

ARДTA, fond 45, siyahı 2, iş 132.

## İnternet Kaynakları

İBRAHİM,Türk tarixi:http://avrasiya.info/arasdirmalar/3970-brahim-sel-turk-tarixi.html (12.02.2019).

YÜCEL, Y., Çoban Oğulları Beyliği:http://dergiler.ankara.edu.tr/dergiler/26/1046/12632.pdf, (23.02.2019).

Jivopisnaya istoriya Bolqarii: https:// maximus101. livejournal. com/134968.html >(15.02.2019).